# MÜBARİZ KEŞİKDƏ

11 aprel 2019-cu il
Cümə axşamı
№ 13 (3428)

1933-cü ildən çıxır
www.mk.mia.gov.az
Qiyməti 40 qəpik

AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI




**Polis, daxili işlər orqanları Azərbaycan dövlətinin əsas sütunlarından, dayaqlarından biridir. Polis Azərbaycan dövlətinə, dövlətçiliyinə xidmət edir. Azərbaycanın dövlət müstəqilliyinə xidmət edir. Hər bir Azərbaycan vətəndaşına xidmət edir.**

# PREZİDENT İLHAM ƏLİYEV VƏ BİRİNCİ XANIM MEHRİBAN ƏLİYEVA AZƏRBAYCANIN 10 MİLYONUNCU SAKİNİNİN VALİDEYNLƏRİ İLƏ GÖRÜŞÜBLƏR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva aprelin 9-da Respublika Perinatal Mərkəzində Azərbaycanın 10 milyonuncu sakini Mehriban Həsənovanın valideynləri Rauf Həsənov və Nigar Ocaqova ilə görüşüblər.

Dövlətimizin başçısı və xanımı uşağın valideynləri ilə söhbət etdilər.

**Rauf Həsənov:** 2019-cu il aprelin 6-da saat 03.30 radələrində dünyaya gəldi.

**Prezident İlham Əliyev:** Bilirəm. Biz bu hadisəni izləyirdik. Aprelin 6-da sizin həyatınızda, eyni zamanda, ölkəmizin həyatında çox əlamətdar hadisə baş vermişdir. Sizin körpəniz ölkəmizin 10 milyonuncu sakinidir. Sizi təbrik edirəm, sağlam böyüsün, sizi sevindirsin, xalqımızı sevindirsin. Bu, tarixi hadisədir. Bu gözəl hadisə münasibətilə Azərbaycan xalqını təbrik edirəm.

**Rauf Həsənov:** Biz gözləmirdik ki, bizim körpəmiz Azərbaycanın 10 milyonuncu sakini olar.

**Prezident İlham Əliyev:** Əhalimiz artır. Yadımdadır, 9 milyonuncu sakin 2010-cu ildə dünyaya gəldi. Doqquz il ərzində əhalimiz 1 milyon artdı. Amma son 15 il ərzində əhali 1,7 milyon nəfər artdı. Bu, bizim gücümüzü, ölkəmizin qüdrətini artırır. Eyni zamanda, onu göstərir ki, ölkəmizdə sosial-iqtisadi inkişaf gedir. Çünki əhalinin artımı birbaşa sosial vəziyyətlə bağlıdır.

**Rauf Həsənov:** Mənim xəbərim yox idi. Mətbuat xəbərlərinə girib oxudum, gördüm ki, sağ olun, elə ilk öncə Siz təbrik etmisiniz.

**Prezident İlham Əliyev:** Bəli, bəli.

**Rauf Həsənov:** Çox sağ olun, çox minnətdarıq.

**Birinci xanım Mehriban Əliyeva:** Çox göyçək uşaqdır.



**Prezident İlham Əliyev:** Bu, sizin birinci uşağınızdır?

**Rauf Həsənov:** Bəli, ilk övladımızdır.

**Birinci xanım Mehriban Əliyeva:** İlk uşağınızdır?

**Nigar Ocaqova:** Bəli, ilk uşağımızdır.

**Birinci xanım Mehriban Əliyeva:** Maşallah, Allah qorusun.

**Rauf Həsənov:** Elə ilk olaraq Siz təbrik etdiyinizə görə adını da Sizin adınızı qoyduq.

**Nigar Ocaqova:** Siz də xeyir-duasını verin.

**Birinci xanım Mehriban Əliyeva:** Verirəm. Xoşbəxt böyüsün, sağlam böyüsün.

**Prezident İlham Əliyev:** Bu hadisəni bütün xalqımız bayram edir.

**Rauf Həsənov:** Bəli, bütün ölkəmiz bayram edir. Biz də çox sevincliyik, çox sevinirik.

**Nigar Ocaqova:** Biz də şəhərimizin belə gözəl tibb ocaqlarının olmasına sevinirik. Perinatal Mərkəzin direktoru Sevinc xanıma, körpənin sağlam şəkildə dünyaya gəlməsinə görə Rübabə xanıma təşəkkürümüzü bildiririk. Sağ olsunlar.

**Prezident İlham Əliyev:** Bu mərkəz çoxdan fəaliyyət göstərirdi. Təqribən 10 il bundan əvvəl əsaslı şəkildə yenidən quruldu, təmir olundu və indi ölkəmizin aparıcı tibb mərkəzlərindən biridir. Son illərdə ölkəmizin hər bir yerində doğum evləri, doğum şöbələri, xəstəxanalar tikilir. Yəni, indi tibbi xidmət almaq üçün bütün şərait var.

**Birinci xanım Mehriban Əliyeva:** Götürmək olar balacanı?

**Rauf Həsənov və Nigar Ocaqova:** Buyurun.

**Birinci xanım Mehriban Əliyeva:** Maşallah.

**Nigar Ocaqova:** Maşallah gününüz olsun.

**Birinci xanım Mehriban Əliyeva:** Allah qorusun! Xoşbəxt, sağlam, analı-atalı böyüsün!

**Rauf Həsənov:** Çox sağ olun ki, gəldiniz.

**Prezident İlham Əliyev:** Bu, Həsənova Mehriban Rauf qızının sertifikatıdır. Ölkəmizin 10 milyonuncu sakinidir. Bunu sizə təqdim edirəm.

**Rauf Həsənov:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bu həmin sertifikatın başqa variantıdır. Sizə dövlət tərəfindən mənzil hədiyyə olunur. Bu da mənzilin çıxarışıdır.

**Rauf Həsənov:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Gözəl balanızın hesabına vəsait də köçürülür.

**Rauf Həsənov:** Çox sağ olun. Allah Sizdən razı olsun.

**Prezident İlham Əliyev:** Xeyirli işlərdə istifadə edin. Bu da hədiyyələrdir.

**Rauf Həsənov:** Çox sağ olun. Sizə minnətdaram.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun. Təbrik edirik.

# BAKININ KÜRDƏXANI QƏSƏBƏSİNDƏ MƏCBURİ KÖÇKÜN AİLƏLƏRİ ÜÇÜN YENİ YAŞAYIŞ KOMPLEKSİNİN AÇILIŞI OLUB

## *PREZİDENT İLHAM ƏLİYEV AÇILIŞDA İŞTİRAK EDİB*

Bakının Kürdəxanı qəsəbəsində 810 məcburi köçkün ailəsi üçün salınan yeni yaşayış kompleksi aprelin 5-də istifadəyə verilib.

Azərbaycan Prezidenti İlham Əliyev açılış mərasimində iştirak edib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verib.

Qeyd olunub ki, bu, ölkə üzrə məcburi köçkünlər üçün salınan sayca 103-cü müasir yaşayış kompleksidir.

Yeni kompleksdəki mənzillərdə yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verilib ki, buradakı mənzillərdən 72-si birotaqlı, 360-ı ikiotaqlı, 306-sı üçotaqlı, 72-si isə dördotaqlıdır. Mənzillərin ümumi sahəsi 91 min kvadratmetrdir. Yeni yaşayış kompleksində hazırda paytaxtdakı yataqxanalarda və digər inzibati binalarda müvəqqəti məskunlaşmış məcburi köçkün ailələri mənzillə təmin olunacaqlar.

Bu istiqamətdə atılan mühüm addımlardan danışarkən Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən tədbirləri də vurğulamaq lazımdır. Artıq Qaradağ rayonunda 1026 məcburi köçkün ailəsi üçün yaşayış kompleksi inşa edilib. Abşeron rayonunun Masazır, Mehdiabad, həmçinin Sabunçu rayonunun Ramana qəsəbələrində 470 mənzil məcburi köçkünlərə təqdim edilib. Heydər Əliyev Fondu tərəfindən alınan 465 mənzilə Binəqədi rayonu, 9-cu mikrorayon ərazisindəki Təcili Tibbi Yardım Stansiyasının yarımçıq binasından məcburi köçkün ailələri köçürülüb. Sumqayıtdakı 1005 məcburi köçkün ailəsi üçün inşa olunmuş yaşayış binalarının da açılışı olub.

Sonra Prezident İlham Əliyev uşaq bağçasında yaradılan şəraitlə tanış olub. Burada balacaların təlim-tərbiyəsi üçün bütün imkanlar var.

Daha sonra Şuşa rayon 7 nömrəli tam orta məktəbdəki şəraitlə tanış olan Prezident İlham Əliyevə məlumat verilib ki, bu təhsil ocağı 560 şagird yerlikdir.

Sonra Prezident İlham Əliyev məcburi köçkünlərlə görüşüb.

Dövlətimizin başçısı görüşdə çıxış edib.

Sonda xatirə şəkli çəkdirilib.

**Azərbaycan Prezidenti İlham Əliyev aprelin 3-də məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında fərman imzalayıb.**

❖❖❖❖❖

***Aprelin 3-də dövlətimizin başçısı İlham Əliyev Slovakiya Respublikasının Prezidenti seçilməsi münasibətilə zati-aliləri xanım Zuzana Çaputovaya təbrik məktubu göndərib.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri aprelin 4-də Rusiya Federasiyasının sənaye və ticarət naziri Denis Manturovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

❖❖❖❖❖

***Dövlətimizin başçısı aprelin 4-də Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Aprelin 5-də Azərbaycan Prezidenti İlham Əliyev Bakı şəhərində iki yeni “ASAN xidmət” mərkəzinin layihələndirilməsi və tikintisi haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Ölkəmizin rəhbəri aprelin 8-də Azərbaycan Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətinə görə Elçin Tələt oğlu Bağırovun “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Aprelin 8-də Azərbaycan Prezidenti İlham Əliyev Dünya Bankının prezidenti vəzifəsinə seçilməsi münasibətilə cənab Devid Malpassa təbrik məktubu göndərib.**

❖❖❖❖❖

***Aprelin 8-də dövlətimizin başçısı Şəmkir rayonunun Şəmkir–Zəyəm–Düyərli–Şiştəpə–Bayramlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Ölkəmizin rəhbəri aprelin 8-də Samux Rayon Mərkəzi Xəstəxanasının layihələndirilməsi və tikintisi ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb.**

❖❖❖❖❖

***Aprelin 9-da Azərbaycan Prezidenti İlham Əliyev Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.***

❖❖❖❖❖

**Aprelin 9-da dövlətimizin başçısı Azərbaycan ədəbiyyatının inkişafı və təbliğində xidmətlərinə görə Çingiz Akif oğlu Abdullayevin “Şərəf” ordeni ilə təltif edilməsi haqqında sərəncam imzalayıb.**

# VƏTƏNİMİZİN ETİBARLI MÜDAFİƏSİ ÜÇÜN...

Bu gün ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrindəndir. Daha dəqiq desək, sonuncu reytinqə əsasən, Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir. Son 15 ildə Azərbaycan Ordusunun modernləşdirilməsi və hərbi qüdrətinin artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu uğurla aparılır, yeni silah və hərbi texnika alınır, hərbi qulluqçuların sosial müdafiəsi istiqamətində kompleks tədbirlər görülür...

*Bax səh.2.*

# *VƏTƏNDAŞLARIN NƏZƏRİNƏ!*

Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov 2019-cu il aprel ayının 27-də Göyçay Rayon Polis Şöbəsində Göyçay, Mingəçevir, Ağsu, Şamaxı, İsmayıllı, Yevlax, Ucar, Kürdəmir və Ağdaş şəhər və rayonlarının sakinlərini qəbul edəcək.

Vətəndaşlar daxili işlər orqanlarının əməkdaşlarının fəaliyyətinə və Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbula gələnlər şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

# YAZIRLAR Kİ...

**Müasir texnologiyaların inkişaf etdiyi dövrümüzdə məktublar da öz aktuallığını qoruyub-saxlayıb. Redaksiyamıza daxili işlər orqanlarının fəaliyyəti ilə bağlı hər gün vətəndaşlardan çoxsaylı təşəkkür məktubları daxil olur. Müəllifləri müxtəlif peşə sahibləri olsalar da amalları eynidir. Məktubların mövzusunu qanunun aliliyi prinsipinin uca tutulması, Azərbaycan Polisinin ictimaiyyət arasında böyük nüfuza malik olması təşkil edir.**



Son günlər aldığımız məktublardan bir neçəsini diqqətinizə çatdırırıq.

**Bakı şəhər sakinləri Sərxan Musayev və Heydər Ağayev** müraciətlərinə tez bir zamanda baxılaraq, problemlərinin həllini tapmasında onlara göstərilən köməyə görə Əlahiddə Çevik Polis Alayının əməkdaşlarına təşəkkürlərini bildirirlər.

**Paytaxt sakini Şahin İsmayılov** gözündə yaranan problemlə bağlı DİN-in 2 nömrəli Poliklinikasına müraciət etdiyi zaman ona göstərdikləri diqqət və qayğıya görə bütün tibbi personala minnətdarlığını yazır.

**Bakı şəhər sakinləri Bəhlul Xəlilov və Rafiq Cavadov** öz məktublarında onlara dəyən ziyanın ödənilməsində göstərdikləri köməyə görə həmkarlarımıza təşəkkürlərini yazır və fəaliyyətlərində uğurlar diləyirlər.

**Sabirabad rayon sakini Bircə Şıxəliyeva** məktubunda yazır: "Övladım ağır əsəb sarsıntısı keçirdiyi zaman təlaş içindəydim, nə edəcəyimi bilmirdim. O an hər hansı bir hadisə qaçılmaz idi. Hər zaman olduğu kimi bu anda da ilk olaraq köməyimizə çatan polis oldu. Polisin operativliyi sayəsində oğlum vaxtında xəstəxanaya çatdırıldı".

**Beyləqan rayon sakini Aygün Cəfərova** övladının daxili işlər orqanlarında işlə təmin olunduğuna görə DİN rəhbərliyinə təşəkkürünü bildirir və polisimizlə qürur duyduğunu yazır.

**Astaradan Mircəfər Babazadə və Cəlilabaddan Ramiz Yarıyev** ictimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə polisin rolunu yüksək dəyərləndirirlər.

**Paytaxt sakini Rafiq Cavadov və Şirvan şəhər sakini Şəhla Hüseynova** müraciətlərinə polisin çevik reaksiya verməsini vətəndaş hüquqlarına verilən ən böyük dəyər kimi qiymətləndirirlər.

**Bakı şəhər sakini Aysel Zeynalova** isə Azərbaycan Polisinə olan rəğbətini və minnətdarlığını yazdığı şeir parçası ilə ifadə edir.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*

# VƏTƏNİMİZİN ETİBARLI MÜDAFİƏSİ ÜÇÜN...

**Bu gün ordu quruculuğu baxımından Azərbaycan dünyanın güclü ölkələrindəndir. Daha dəqiq desək, sonuncu reytinqə əsasən, Azərbaycan Ordusu dünya miqyasında öz potensialına görə 52-ci yerdədir. Son 15 ildə Azərbaycan Ordusunun modernləşdirilməsi və hərbi qüdrətinin artırılması istiqamətində mühüm tədbirlər həyata keçirilir. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə ordu quruculuğu uğurla aparılır, yeni silah və hərbi texnika alınır, hərbi qulluqçuların sosial müdafiəsi istiqamətində kompleks tədbirlər görülür.**



Hərbi hissələrdə şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi istiqamətində quruculuq-abadlıq işləri bu ilin ilk rübü ərzində də davam etdirilib. Belə ki, yanvarın 22-də mühəndis və kimya hərbi hissələrində yeni istifadəyə verilən obyektlərin açılışı olub. Mühəndis-istehkam hərbi hissələrinin yerinə yetirdiyi vəzifələr, bu bölmələrin texniki baxımdan təkmilləşdirilməsi və döyüş potensialının artırılması üçün müasir texnikalar alınaraq qoşunların təminatına verilib. Hərbi əməliyyatların mühəndis təminatının yerinə yetirilməsi zamanı tətbiq olunan müxtəlif növ texnikanın saxlandığı park, şəxsi heyətin hazırlığı üçün nəzərdə tutulan taktiki sinif otaqları, digər inzibati tikililər müvafiq avadanlıqlar və əyani təbliğat vasitələri ilə tam təchiz edilib. Bundan başqa, istifadəyə yeni qərargah, əsgər yataqxanası və yeməkxana verilib.



Yanvar ayının 30-da Hərbi Hava Qüvvələrinin cəbhəboyu zonada yerləşən hissələrində şəxsi heyətinin döyüş hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin təkmilləşdirilməsi məqsədilə yeni yaşayış kompleksləri istifadəyə verilib. Ərazidə əsgər yataqxanaları, yeməkxanalar, sinif otaqları, tibb məntəqələri, mətbəxlər, qazanxanalar, anbarlar, eləcə də digər xidməti və inzibati obyektlər müasir standartlara uyğun tikilib.

Fevralın 1-də cəbhəboyu zonada yeni inşa edilməkdə olan bir neçə hərbi obyektlərdə tikinti işləri aparılıb.

Aprelin 2-də Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin hərbi hissəsində yenidənqurma işləri aparılıb. Hərbi hissənin ərazisində qərargah binası, yeməkxana, əsgər yataqxanası yenidən qurulub, müasir təlim mərkəzləri yaradılıb. Eyni zamanda, burada xidmət edən ailəli hərbi qulluqçular üçün yeni yaşayış binaları, subay hərbçilər üçün isə müasir tələblərə cavab verən yataqxanalar inşa olunub.

DİN-in Daxili Qoşunları da ölkəmizdə geniş vüsət alan quruculuq-abadlıq prosesindən kənarda qalmayıb. Hərbi qulluqçuların döyüş hazırlığının yüksəldilməsi, döyüş qabiliyyətinin müasir standartlara cavab verməsi, habelə sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması məqsədilə 80 mənzilli zabit yataqxanası əsaslı təmir olunub. Bundan başqa, açılışı nəzərdə tutulan yeni hərbi şəhərcikdə genişmiqyaslı tikinti işləri davam etdirilib, yerlərdəki hərbi hissələrdən birində YSM anbarı və kazarmada sanitar qovşaqlar, digər hərbi hissədə əsgər yeməkxanasında qabyuma sexləri, o cümlədən yardımçı otaqlar əsaslı təmir olunub. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda erməni işğalçılarına qarşı döyüşlərdə şəhid olmuş hərbi qulluqçularının əziz xatirəsinə Şəhidlər xiyabanında yeni memorial abidə kompleksinin yaradılması da birinci rüb ərzində görülən işlərdəndir.

Yaradılan hərtərəfli şərait bir məqsədə-şəxsi heyətin qarşısında duran xidməti-döyüş tapşırıqlarının daha keyfiyyətlə yerinə yetirməsinə xidmət edir.

*Teymur Əlizadə,*
*polis kapitanı*

# HƏR BİR VƏTƏNDAŞ FƏAL OLMALIDIR

**İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsi valideyn himayəsindən məhrum uşaqlar üçün 1 nömrəli tam orta internat məktəbində "İnsan alverinin mahiyyəti, formaları, doğurduğu təhlükələr və onunla mübarizə" mövzusunda tədbir təşkil edib.**

Tədbirdə baş idarənin əməkdaşı, polis polkovniki Fuad Əliyev insan alverinin bəşəriyyəti narahat edən ciddi sosial bəla olduğunu vurğulayıb. Tədbirdə insan alverinə qarşı mübarizə mexanizmlərindən, Azərbaycan dövlətinin bu qəbildən olan cinayətlərin qarşısının alınması istiqamətində həyata keçirdiyi kəsərli tədbirlərdən söhbət açılıb.

İnsan Alverinə Qarşı Mübarizə Təşkilatının rəhbəri Ramiz Alıyev insan alverinə qarşı mübarizədə vətəndaş cəmiyyətinin fəal iştirakının önəmini xüsusi vurğulayıb. Bildirib ki, hər bir vətəndaş insan alveri ilə mübarizədə hüquq-mühafizə orqanlarının yanında olmalıdır.

Sonra iştirakçıların sualları cavablandırılıb. Tədbirin sonunda DİN-in təşəbbüsü ilə çəkilmiş "Satılmış həyat" filmi nümayiş olunub.

*Natiq Cavadov,*
*polis kapitanı*

# ZƏRGƏR DƏQİQLİYİ İLƏ...

**"Sənə birinci cansağlığı, sonra ürəyin nə istəyir, onu arzulayıram" deyənlərə dodaq büzüb, hələ üstəlik, "guya çox böyük şey arzulayır" da demişik. Uşaqlıq…**



İllər keçəndən sonra anladıq bu fikrin böyüklüyünü. Sonralar "cananın sağlamlığı üçün insan ilk növbədə özünün həkimi olmalıdır" deyimini qulağımızda sırğa etdik. Pis, zərərli vərdişlərdən uzaq durub Allahın verdiyi bu gözəl nemət və əmanətə bəzilərindən fərqli olaraq xəyanət etmədik.

Düzdür, heç də həmişə sağlamlığımızın qeydinə qalmırıq. İş-işdən keçəndə üz tutduğumuz ilk ünvan isə ağ xalatlı xilaskarlar olur.

Peşəmiz ona görə çətin və maraqlıdır ki, hər addımda hətta həyatımız bahasına başa gələcək hadisələrlə rastlaşırıq. Biz həm də onlara güvənib köməyimizə ehtiyacı olanlara təhlükədən daha yaxın oluruq. Bilirik ki, bizi də, nəyin bahasına olursa-olsun, onlar xilas edəcəklər. Bu dəfə də onlardan yazdıq…

Onların işi isə zərgər dəqiqliyi tələb edir. Bir səhv bir insan həyatını məhv edə bilər. Çünki qoyulan diaqnoz ya həyat qurtarır, ya da…

Elə bu günlərdə tibbi müayinədən keçərkən yolumu həmin laboratoriyadan saldım. "Mən həyatımı sağlam yaşamaq istəyirəm" deyəndə isə hər zaman çöhrəsində gülüş, nəvaziş gördüyüm hospitalın laboratoriyasının rəisi, tibb xidməti mayoru Zərəngül Hidayətovanın cavabı belə oldu: "Polisimiz, əsgərimiz sağlam olmalıdır ki, üzərinə düşən vəzifənin ağırlığına, çətinliyinə dözə bilsin"…

Ən müasir avadanlıqlarla təchiz olunan, bütün xəstəliklərin ilkin diaqnozunun qoyulduğu laboratoriyada son sözü yenə də peşəkarlar deyir. Və burda gördüklərimdən belə qənaətə gəldim ki, laboratoriya hospitalın "ürəyi"dir. Qanın ümumi analizi, biokimyəvi, hormonal analizlər, eləcə də koaquloqramma vasitəsilə xəstəliklərin müəyyən edilməsindən tutmuş polimiraz zəncirvari reaksiyaların aparılmasına bir neçə dəqiqə lazımdır. Laboratoriya rəisi onu da diqqətimizə çatdırdı ki, məhz bu avadanlıqların köməyi ilə bir saat ərzində 1000-dən çox analizin nəticəsini dəqiqləşdirmək mümkündür.



Bekcman şirkətinin 26 parametrli LH-780 hemoqramma aparatının üstünlüyü ondan ibarətdir ki, onun vasitəsilə müayinə olunan qanda parametrlər avtomat və lazer üsulu ilə hesablanır. Almaniya istehsalı olan biokimyəvi analizator Azərbaycanda yalnız bizim hospitalımızdadır.

Qeyd olundu ki, may və iyun aylarında laboratoriyaya yeni avadanlıqlar gətiriləcək ki, bu da tibbi xidmətin ən müasir tələblər səviyyəsində qurulmasına imkan verəcəkdir.

Məhz burada tətbiq olunan yeniliklər və peşəkarların işə məsuliyyətlə yanaşması vətəndaşların da diqqətini cəlb edir. Analiz verib xəstəlikləri barədə dəqiq və vaxtında cavab almaq istəyənlər xarici ölkələrə deyil, DİN-in Arif Heydərov adına Respublika Hospitalına üz tuturlar. Laboratoriyanın həkimləri, tibbi personalı müraciət edənlərin əksəriyyətinin gənc olduğunu nəzərə alıb, onları bu gün ölkəmizdə də sürətlə yayılan hepatitlərlə və digər insan həyatı üçün təhlükəli olan xəstəliklərlə bağlı maarifləndirirlər.

Laborotoriyada 5 həkim çalışır. **Baş ordinator, tibb xidməti kapitanı Nərgiz İmamverdiyevaya, ordinator, tibb xidməti leytenantı Leyla Musayevaya, mülki həkimlər Gülnarə Vəliyeva və Arzu Miriyevaya** etibar etməklə bədənimizdə baş verən proseslərdən xəbərdar ola bilərik.

Özü haqqında danışmaq istəməyən Zərəngül xanımı uzun isrardan sonra razı sala bildim.

Həkimlər ailəsində doğulub. 1999-cu ildə Azərbaycan Dövlət Tibb Universitetini bitirdikdən sonra ata-baba yurdu Oğuzda həkim-laborant işləyib. 2009-cu ildən daxili işlər orqanlarında xidmət edir. 2014-cü ildə laboratoriyanın rəisi təyin edilib. Türkiyənin Memorial xəstəxanasında kurs keçib.

Bizdən bu qədər. Gəldik, gördük və yazdıq. Ayrılanda "laborantlarımızın da adını yazmağı unutmayın",-dedi.

Biz də Ulduz Cəfərovanın, Rəqibə Alyazovanın, Vəfa Mədətovanın və Aynur Ağammədovanın adlarını yazmağı unutmadıq.

*Hafiz Təmirov,*
*polis mayoru*

# HƏRBİ EHTİRAM ƏNƏNƏLƏRİ

## VƏTƏNPƏRVƏRLİK ƏQİDƏSİ FORMALAŞDIRIR



**Hərbi xidmətdə şəxsi heyətin mənəvi-psixoloji hazırlığının, onun döyüş ruhunun yüksəldilməsinə, vətənpərvərlik əqidəsinin formalaşmasına müsbət təsir göstərən amillər var. Bu amillər arasında hərbi ehtiram ənənələrinin də rolunu xüsusi qeyd etmək lazımdır.**

Tarixə nəzər salsaq, müxtəlif dövrlərdə ayrı-ayrı ölkələrin silahlı qüvvələrinin həyatında hərbi ehtiram ənənələrinə riayət olunması, şəxsi heyətin bu ruhda tərbiyə edilməsi olduqca vacib məqam kimi öz əksini tapıb. Hərbi ehtiram ənənələri ilk növbədə hərbçi şərəfi və nüfuzunun uca tutulmasını aşılayır. Bu ənənələr həm müqəddəs missiyanı yerinə yetirən hərbçilərə cəmiyyətdə layiqli münasibət, həm Vətən yolunda həyatını qurban vermiş şəhidlərin xatirəsinə ehtiram, həm də şəhid ailələrinə, veteranlara hörmət və sayğı göstərilməsini özündə ehtiva edir. Qeyd etmək zəruridir ki, hərbi ehtiram ənənələri bütöv bir mənəvi dəyərlər sisteminə söykənir və tarixi köklərə bağlıdır. Hər bir xalqın və dövlətin keçdiyi mübarizələr, sınaqlar, mücadilələr yolu onun güc və əzminin güzgüsüdür. Bu güc və əzmi özündə cəmləşdirən mənəvi dəyərlər və ənənələr möhkəm ideoloji bünövrə formalaşdırır. Hərbi qulluqçular üçün tarixi qəhrəmanlıq salnaməsi yenilməzlik örnəyidir.

Öz xalqının və dövlətinin toxunulmazlığını qoruyan hərbçilərin şərəfləndirilməsi, rəşadətə, fədakarlığa ruhlandırılması, ideoloji cəhətdən düzgün istiqamətləndirilməsi, məslək və amallarına inamının qüvvətləndirilməsi nöqteyi-nəzərdən hərbi ehtiram ənənələri böyük tərbiyəvi mahiyyət daşıyır. Hərbi qulluqçuların dünyagörüşü və təfəkküründə hərbi ehtiram ənənələri dərin iz buraxmaqla, onların hərbi xidmətə qəlbən bağlanması, xalqın və dövlətin göstərdiyi etimada görə qürur hissi keçirməsi baxımından vacib mənəvi dəyərə malikdir.

Hərbi ehtiram ənənələrinin həyata keçirildiyi tədbirlər və mərasimlər müxtəlifdir. Belə ki, hərbi andiçmə, hərbi parad, döyüş bayrağının təqdim olunması, dövlət mükafatlarının verilməsi, şəhidlərin dəfn və anım mərasimləri bu ənənələri əks etdirən rituallar, qaydalar, elementlərə uyğun keçirilir. Bu tədbirlərin hər biri hərbi xidmət haqqında müəyyən rəy və təsəvvür yaratmaqla yanaşı, hərbçilərin çətin və şərəfli fəaliyyətinin dövlət üçün nə qədər əhəmiyyətli olduğunu da cəmiyyətə göstərir.

Xalqının və dövlətinin keşikçisi olan hərbiçilər həm öz sıralarında, həm də ictimaiyyət arasında ehtirama həmişə layiqdirlər. Hərbçini qəhrəmanlığa aparan yol onun məsləyinə, əqidəsinə, şəxsiyyətinə, peşəkarlığına, dəyanətinə, fədakarlığına hörmətdən başlayır. Silahdaşlıq, əsgəri qardaşlıq məfhumları hərbi andiçmə, hərbi parad, mükafatlandırılma mərasimlərində və hərbi xidmətin digər mühüm məqamlarında təlqin edilərək, olduqca gərəkli mənəvi keyfiyyətə çevrilir.

Şəhid silahdaşlarımızın dəfn və anım mərasimləri, eləcə də veteranların son mənzilə yola salınması zamanı onlara hərbi ehtiram göstərilməsi hərbçilik mənəviyyatının iftixar doğuran cəhətidir. Bununla yanaşı, şəhid hərbi qulluqçularımızın memorial komplekslərinə, heykəl və büstlərinə, xatirə guşələrinə, məzarlarına hərbi ehtiram göstərilməsi də cəmiyyətdə vətənpərvərliyin ali mənəvi dəyər olduğunun təcəssümüdür.

Hərbi ehtiram ənənələrinin təbliğində bədii ədəbiyyat və kino nümunələrinin, teatr tamaşalarının, hərbi mətbuatın, hərbi marşların, hərbi muzeylərin rolu danılmazdır. Bütün bu vasitələr hərbi ehtiram ənənələrinə dolğun ictimai münasibət yaradır. Gənclərdə hərbi xidmətə maraq yaratmaq, onları hərbçi peşəsinə meyilləndirmək baxımından hərbi ehtiram ənənələrinə düzgün və obyektiv ictimai yanaşma vacibdir. Bütövlükdə, hərbi ehtiram ənənələri bu gün olduğu kimi, gələcəkdə də öz aktuallığını qoruyub saxlayacaqdır.

*Yalçın Abbasov*

# ON MİLYONUN ZİRVƏSİNDƏ...

**Ailəmizin, yaxınlarımızın xoş və acı xəbərlərini biz polislər xidmət başında eşidirik. Çoxumuz buna adətkar olmuşuq. Bəlkə də on milyonuncu vətəndaşımızın-Mehribanımızın atası Rauf Həsənovun: "Özüm polis serjantıyam. Xidmət başındayam. Dostlarım mənə xəbərləri göndərdilər. Oxudum, sevincimin həddi-hüdudu yoxdur" fikri sizlərə qəribə gələr. Onu, övladının dünyaya gəlişindən xəbər tutmayıb deyə, qınayanlar da tapılar.**

Ancaq...

Polis olmaq ömrünü ömürlərə fəda etməkdir. Polis olmaq dünyaya gələn övladının "inqə" səsindən əvvəl "kömək edin",-deyib can çəkişən, haqqı tapdanan, halal malına xain göz dikilən birinin dadına yetişməkdir. Polis olmaq onu həyatdan bircə göz qırpımında ayıran ölümlərə meydan oxumaqdır...

Sayımızın on milyona çatmasına dostlar sevindi, düşmənlər kədərləndi. Əslən işğal altındakı Ağdərədən olan cütlüyün Bakıda, özü də qələbə ayımız olan Apreldə övladının dünyaya gəlməsi çox da uzaqda olmayan qələbəmizdən soraq verir. Bu gün işğaldan azad olunmuş torpaqlarımızda-Horadizdə, Cocuq Mərcanlıda dünyaya göz açanlar düşmənə göz dağıdırlar…

Əslində, Azərbaycanda on milyonuncu əsgər və on milyonuncu sülh carçısı doğuldu. Qədəmlərin mübarək, balaca. Qədəmlərin mübarək, polis övladı...

**P.S.** Bəlkə bu da bir təsadüfdür. Doqquz milyonuncu vətəndaşımız da polis övladı idi…

***Ətraflı "Asayişin keşiyində" jurnalında.***

*H.Təmirov,*
*polis mayoru*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ VAKANT POST-PATRUL XİDMƏTİNİN POLİS NƏFƏRİ(KİÇİK RƏİS HEYƏTİ) VƏZİFƏLƏRİNDƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR

## MÜSABİQƏ ELAN EDİR

2019-cu il aprel ayının 15-də saat 8.00-da, Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik Ramil Usubov tərəfindən DİN-in Əlahiddə Çevik Polis Alayında, Bakı şəhər Baş Polis İdarəsinin tabeli orqanlarında və Sumqayıt, Abşeron şəhər, rayon polis idarələrində vakant (500 ştat) post-patrul xidmətinin polis nəfəri (kiçik rəis heyəti) vəzifələrində xidmətə qəbulla bağlı Bakı şəhəri Nobel prospekti 69 ünvanında yerləşən Əlahiddə Çevik Polis Alayında sıra baxışı keçiriləcəkdir.

Sıra baxışında ali və ya orta-ixtisas, yaxud tam orta təhsilli, yaşı 20-dən 25-dək, boyu 180 santimetrdən hündür, idman cüssəli, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları qəsdən törədilmiş ağır cinayətlərə görə məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yaşayış yeri üzrə daimi qeydiyyatda olan və yaşayan, "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə" ilə müəyyən edilmiş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları iştirak edə bilərlər.

Həmin vəzifələrdə əmək funksiyalarının spesifikliyi, yüksək fiziki və psixoloji gərginliklə bağlı olması, eləcə də xidmətin növbəli, bir çox hallarda əsas iş vaxtından əlavə müddətdə aparılacağı baxımından müsabiqə iştirakçılarının sağlamlıq vəziyyəti, biliyi, fiziki hazırlıq səviyyəsi müəyyən olunmuş qaydada yoxlanılacaqdır.

Kompyuter avadanlıqları ilə işləmək qabiliyyətinə malik, ali təhsilli və xarici dillərdən birini (əsasən ingilis dili) sərbəst bilən vətəndaşlara üstünlük veriləcəkdir.

Bir daha nəzərə çatdırılır ki, boyu 180 santimetrdən aşağı olan və müsabiqənin digər şərtlərinə uyğun gəlməyən namizədlər keçid məntəqəsində yoxlanılaraq sıra baxışına iştiraka buraxılmayacaqlar.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**(012)-590-97-52;**
**(012)-590-94-12;**
**(012)-590-92-37;**
**(012)-590-93-45.**

*Azərbaycan Respublikası*
*Daxili İşlər Nazirliyi*

# XİLASKAR POLİSLƏR

**"Adım Ceyran İsrayılovadır. Sabunçu rayon sakiniyəm. Bir neçə gün öncə şahidi olduğum hadisədən sonra bir daha əmin oldum ki, Azərbaycan Polisi həqiqətən xilaskardır. Həm də təşəkkürümü şəxsən sizlərə bildirmək üçün bura üz tutdum. Polislər olmasaydı həmin uşağın həyatını xilas etmək mümkün olmayacaqdı"...**

Ceyran İsrayılovanın, eləcə də həmin hadisənin şahidi olan hər kəsin rəğbətini qazanan polislərimizin kimliyini müəyyən etmək üçün Sabunçu RPİ-yə yollandım. Rəis müavini, polis polkovnik-leytenantı Sədi İsmayılov belə bir hadisənin baş verdiyini təsdiqlədi.



"Biz "Heydər parkı" ərazisində xidmət aparırdıq. Birdən "Kömək edin, uşaq boğulur",-deyib qışqıran qadınların səsini eşitdik. Tez özümüzü çatdırdıq. Boğazında yad cisim qalma səbəbindən nəfəs ala bilmədiyinə görə xırıldayırdı. Dərhal ilkin tibbi yardım göstərdik. Vaxtında müdaxilə etməsəydik",- deyən **polis serjantı Siyavuş Mirzəzadə** 2000-ci ildən daxili işlər orqanlarında xidmət edir. **Polis kiçik serjantı Elnur Tağızadə** isə 2018-ci ildən sıralarımıza qəbul olunub.

"Bu qəhrəmanlığınızdan bəhs edən kiçik bir yazını "Mübariz keşikdə"nin gələn sayında oxuyarsınız",-deyəndə: "O uşağın yerində bizim doğmamız, əzizimiz ola bilərdi. Kömək etmək həm vəzifəmiz, həm də insanlıq borcumuzdur",-dedilər.

*Ruslan Vəliyev,*
*polis leytenantı*

# AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ TİBB İDARƏSİNİN MÜALİCƏ-PROFİLAKTİKA MÜƏSSİSƏLƏRİNDƏ VAKANT OLAN HƏKİM VƏZİFƏLƏRİNƏ XİDMƏTƏ QƏBULLA ƏLAQƏDAR

## MÜSABİQƏ ELAN EDİR

Elan olunmuş müsabiqədə dövlət ali təhsil müəssisələrində narkoloq, uroloq, onkoloq, travmatoloq, cərrah, neyrocərrah və epidemioloq ixtisası almış, həmin təhsil müəssisələrində həmin ixtisas üzrə rezidentura keçmiş, ixtisas üzrə azı 5 il praktiki təcrübəyə malik, yaşı 35-dən yuxarı olmayan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş (kişilər üçün), əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla), "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda yaşayış yeri üzrə qeydiyyatda olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2019-cu il mart ayının 27-dən aprel ayının 27-dək **http://www.mia.gov.az/index.php?/az/content/29942** ünvanında yerləşdirilmiş elektron ərizə formasını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə Daxili İşlər Nazirliyinin Tibb İdarəsinin internet **medical@mia.gov.az** ünvanına göndərməlidirlər.

Elektron ərizənin qeydiyyata alınması barədə müvafiq məlumat aldıqdan sonra müsabiqədə iştirak etmək üçün dəvət edilən namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

***-şəxsiyyət vəsiqəsi;***
***-ali təhsil haqqında diplom;***
***-hərbi bilet (kişilər üçün);***
***-əmək kitabçasının surəti.***

Müsabiqə qaliblərinə müvafiq xüsusi rütbə verilməklə Azərbaycan Respublikası DİN-in kadrları tərkibinə daxil edilərək ilkin olaraq 500 manat aylıq təminat xərcliyi, eləcə də göstərdiyi pullu xidmətə görə əlavə pul vəsaiti ödəniləcək, habelə onların qanunvericiliklə müəyyən olunmuş qaydada daxili işlər orqanları əməkdaşlarına şamil olunan bütün imtiyazlardan istifadə hüququ veriləcək.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**
**012-590-20-59**
**012-590-20-94**

*DİN-in Baş Kadrlar İdarəsi*

# NİFRƏT VƏ MƏHƏBBƏT DƏRSİ

**Hərdən mənə elə gəlir ki, yanvar və mart aylarında Xəzər dənizi də qaraya bürünüb matəm saxlayır. Seyrinə dalanların gözündən oğurlanıb içinə çəkilir və əbədi bir sükuta qərq olur. Susur, susur...**

Yarandığı gündən çox faciələrimizə şahidlik edib Xəzər. Qanımıza susayanlar bizi zaman-zaman kiçikdən-böyüyə təkcə torpağa deyil, Xəzərin sularına da gömüblər. Düşünüblər ki, bu yolla tarixdən izimizi itirəcək, varlığımıza son qoyacaqlar. Lakin bilməyiblər ki, şahidi torpaq və su olanlar ölümsüzlük qazanırlar.

Xəzərin sahilində oğlum Turanın: ***"Ata, bizdən nə istəyirlər"*** sualına cavab verərkən: ***"Ay bala, bu uşaq böyüyəndə onsuz da düşmənlərimizi tanıyacaq"***,- deyən yaşlı bir qadının səsinə diksindik. ***"Bəs, indidən tanısa yaxşı olmazmı"*** cavabım isə sükutla qarşılandı...

Uşaq bir mənə, bir də qadına baxdı…

Nə yaxşı ki, bəzilərimizdən fərqli olaraq, bu uşaq indidən düşməni tanıyır. Tanımalıdır da.

Bəxtiyar Vahabzadə "Gülüstan" poemasının əvvəlində yazırdı:

***Xalqın tarixini bilməyən insan,***
***Özünü tanımaz, sözünü bilməz…***

Havadarların köməyi ilə torpaqlarımıza yerləşdirilən ermənilər indi də övladlarını iki əsr bundan öncəki "Türk sənin düşmənindir" nifrəti ilə böyüdürlər. Nejdet Qarigenlə, Amazapla, Andraniklə, Şaumyanla, Zori Balayan və Zəhra yaşındakı yüzlərlə uşaq qatili olanların yaşadığı dövr arasında zaman fərqi olsa da qəddarlığın forması dəyişməyib.

1905-1906, 1918-1920-ci illərdə Bakıda, Qubada, Şamaxıda, Qarabağda və İrəvanda törədilən qırğınları özündə əks etdirən tarixi faktlardan bir neçəsini oxumaq bəs edir ki, düşmənin nifrətini görək. Xocalı soyqırımı isə elə də uzaq tarix deyil...

Hayların torpağında məskunlaşdığı bir millətə qarşı misli görünməyən vəhşiliklər, soyqırımlar törətməsini, təəssüflər olsun ki, dünya görməzlikdən gəlir. Hətta bəzən buna açıqdan-açığa dəstək verirlərsə, bəs biz niyə nifrəti dilimizə gətirməkdən qorxaq?…

Düşməni öncə elə öz nifrəti ilə öldürmək lazımdır.

Uşaqlarımıza isə Vətəni tanıtmalı, sevdirməliyik. Əgər bunu bacarsaq, yaşanacaq faciələrin qarşısını vaxtında almaq imkanımız olacaq. Bacarmasaq, tarix yenidən təkrarlanacaq...

*T. Hafiz*

# PƏHLƏVANLAR YARIŞDI...

**Bu yaxınlarda "AAAF Park" Kompleksinin "Zirvə" idman sarayında Pauerliftinq üzrə Azərbaycan çempionatı keçirilib. Yarışda 15 rayonu təmsil edən 20 klubun heyətində 150-yə yaxın idmançı 12 çəki dərəcəsində mübarizə aparıb. Turnirdə Azərbaycan idmançıları ilə yanaşı, İran təmsilçiləri də mübarizəyə qoşulublar.**

İsmayıllı RPŞ-nin əməkdaşı Kamil Qafarov çəkisi 90 kiloqrama qədər olan idmançılar arasında 220 kiloqramlıq ştanqı qaldıraraq "bençpress" hərəkətində yarışın mütləq çempionu adını özündə saxlayıb.

Səbail RMİ-nin əməkdaşı Razim Hüseynov çəkisi 125 kiloqrama qədər olan idmançılar arasında qızıl medal qazanıb. Millimizin "ağır artilleriyası" sayılan təmsilçimiz çiynində 340 kiloqram ştanqla oturub-qalxıb, 250 kiloqramı sinədən qaldırıb, 330 kiloqramı isə qurşağa qədər dartaraq pauerliftinq üzrə mütləq çempion olub.

Digər təmsilçimiz, Azərbaycan Dövlət Televiziyası və Radio verilişləri QSC-nin mühafizəsi üzrə Mühafizə Şöbəsinin əməkdaşı Roman Əhmədov da inamla çıxış edib. O, çəkisi 82 kiloqramadək olan idmançılar arasında çiynində 187 kiloqramlıq ştanqla oturub qalxıb, 140 kiloqramı sinədən qaldırıb, 250 kiloqramı isə qurşağadək dartıb. Bu nəticə ilə o, finaladək irəliləyərək gümüş medal qazanıb.

Bu idman növü ölkəmizdə kişilərlə yanaşı, qadınlar arasında da populyarlaşmaqdadır. Hər il keçirilən ölkə çempionatlarında belə deyək, "zərif güclü"lərimizin sayının və göstərdikləri nəticələrin artması bunu bir daha təsdiq edir.

Sabunçu RPİ-nin Kadr və peşə hazırlığı üzrə inspektoru, polis baş leytenantı Ədilə Qurbanova da bu yarışda adını növbəti dəfə çempionlar sırasına yazdırıb.



Qadınlar arasında ştanqı qurşağadək dartma (deadlift) hərəkətində 145 kiloqram çəkinin öhdəsindən gələrək yarışın qızıl medalını qazanıb. Qeyd edək ki, o, dəfələrlə karate üzrə dünya kubokunu qazanıb, Avropa çempionu olub.

Yarışların idarə olunmasında Samux RPŞ-nin əməkdaşı, Pauerliftinq Federasiyasının vitse-prezidenti, dünya və Avropa çempionu Rüfət Ağayev yaxından iştirak edib.

*Zeyni Hüseynov*

# BİLİRDİNİZMİ?

Yaponiyada keçirilmiş təcrübələr göstərir ki, saunada iki həftə ərzində hər gün 60 dərəcədə keçirilən 15 dəqiqəlik seanslar xroniki ürək çatışmazlığından əziyyət çəkən insanların damar divarlarını və ürək fəaliyyətini yaxşılaşdırır.

*****

Yalnız kəllə beyninin qabığında 16 milyarda yaxın sinir hüceyrələri mövcuddur, onların hər biri neyron və dendrit toru ilə 20 min başqa hüceyrələrlə bağlıdır. Bu o deməkdir ki, beynimizdə hüceyrələrin mümkün ahənginin, yer dəyişməsinin və digər hüceyrə kombinasiyalarının sayı bizim tanıdığımız kainatın molekulalarının sayından çoxdur.

*****

Çəkisi 70-80 kq olan insanın orqanizmində 45,5 kiloqram oksigen, 12,6 kiloqram karbohidrat, 7 kiloqram hidrogen, 2,1 kiloqram azot, 1,4 kiloqram kalsium, 700 qram fosfor var. Bütünlükdə digər elementlər isə (kalium, kükürd, natrium, xlor, maqnezium, dəmir və sink) təxminən 700 qram təşkil edir. Bu "var-dövlətin" hamısı amerikan yazıçının hesablamalarına görə 1 dollar 98 sentə bərabərdir.

*****

İnsan orqanizmində yaşayan bakteriyaların ümumi çəkisi 2 kiloqram təşkil edir.

*****

BMT ekspertlərinin məlumatına görə, A vitamininin çatışmazlığı üzündən hər il dünyada 2 milyona yaxın 5 yaşında uşaq ölür.

*****

İyirmi ölkədə keçirilən çoxillik təcrübələrin nəticələrinə əsasən bəşəriyyət ağıllanır. İntellektin yoxlanılması üçün müntəzəm olaraq keçirilən testlər göstərir ki, hər növbəti nəslin intellekt əmsalı keçmiş nəslinkinə nisbətən 5-25 vahid çoxdur.

*****

İnsan tükü qurğuşundan, misdən, platindən möhkəmdir və möhkəmliyinə görə yalnız poladla rəqabət apara bilər. 0.05 millimetr qalınlığı olan tük 100 qr yükü saxlaya bilər. Qadın hörüyü orta hesabla iki yüz min tükdən ibarətdir və asanlıqla 20 tonluq yükə dözür.

*Ruhiyyə Əliyeva*

# Uşaqlar üçün rəsm müsabiqəsi

**Baş Dövlət Yol Polisi İdarəsi "Yol hərəkəti qaydaları uşaqların gözü ilə" mövzusunda uşaq və yeniyetmələr arasında rəsm müsabiqəsi elan edir.**

Müsabiqə uşaq və yeniyetmələr arasında yol hərəkəti təhlükəsizliyinə dair bilik və vərdişlərin inkişaf etdirilməsi, yol hərəkəti qaydaları haqqında məlumatlılığın artırılması, ətraf mühitin nəqliyyatın zərərli təsirlərindən qorunması, eləcə də uşaq travmalarının qarşısının alınmasında ictimai həmrəyliyin təmin olunması məqsədilə həyata keçirilir.

Müsabiqəyə müəyyən edilmiş mövzulara uyğun digər sənət nümunələri də təqdim edilə bilər.

Müsabiqədə 7-16 yaş arası şəxslər iştirak edə bilər. Əsərlərin qəbulu aprel ayının 5-dən mayın 25-dək aparılacaq. Qaliblər mayın 30-da müəyyən olunacaq.

Müsabiqənin keçirilməsi, əsərlərin qəbulu, qiymətləndirilməsi və qaliblərin müəyyən edilməsi qaydaları Baş Dövlət Yol Polisi İdarəsinin rəsmi internet saytında (dyp.gov.az) yerləşdirilib.

*Natiq Cavadov*

# "QONŞU PAYI" ŞİRİN OLMADI...

**İran İslam Respublikasına o qədər gedib-gəlmişdi ki, artıq pasportunda möhür vurmağa yer də yox idi. Hər dəfə səfərə çıxanda ürəyindəki ağrıların artmasını bəhanə gətirirdi.**

"Çətinliklə" də olsa hazırlaşıb yola çıxdı. Sərhəddə də onu xəstə kimi anlayıb çox sorğu-sual etmədilər. O tərəfdə də bir problem olmadı. Lakin yoxlamalar bitər-bitməz "xəstəmizi" görən olsaydı, tanımazdı. Öncəki halından əsər-əlamət yox idi. Görünür, oraların havası ona "düşürdü".

Sevincək ətrafı gözdən keçirdi. Bamaq məqamı gələndə, Şahin "malı" özüylə aparmaqdan imtina etdi.



xəbər verdilər.

Cəlilabad rayon sakini Şahin Novruzovun şübhəli hərəkətləri RPŞ əməkdaşlarının diqqətindən yayınmamışdı. Keçirilən əməliyyat müşavirəsində bu barədə Şöbənin rəisi, polis polkovniki Mübariz Quliyevə də məlumat verildi. Göstərişə əsasən, yaradılmış əməliyyat-istintaq qrupuna əməliyyat işləri üzrə rəis müavini, polis mayoru Rövşən Quliyev rəhbərlik etdi.

Təcrübəli polis əməkdaşları Şahinin hərəkətlərini diqqətlə araşdırır, İrana gedib-gəlmə vaxtını dəqiqləşdiriblər. Çox yaqdan qonaqlarını səbirsizliklə gözləyən Fərəməz və Şəhriyar qardaşları Şahini görən kimi ona sarıldılar.

*-Ağa, xoş gəldin, gözləməkdən yorulduq ki...*

*-Evdəkilər gəlməyimə yenə narazı idilər, bir təhər çıxa bildim.*

Salam-kalamdan sonra avtomobilə əyləşib yola çıxdılar. Bir neçə saat yolçuluqdan sonra mənzil başına yetişdilər. Burda da Şahini ən əziz qonaq kimi qarşılayıb, qulluğunda durdular.

Artıq hər şey hazır idi. Sağollaşıb ayrılmaq

*-İnciməyin, bu dəfə özümlə apara bilmərəm.*

*-Axı, biz belə danışmamışdıq.*

*-Məndən şübhələnirlər...*

Belə olan halda planda müəyyən dəyişiklik etməli oldular. Şahin gəldiyi kimi də geri qayıtdı. Razılaşdılar ki, bu dəfə malı iki ayrı-ayrı yerdə gizlətsinlər.

Hər şey plana uyğun gedirdi. Dövlət sərhədimizi Yardımlı rayonu ərazisindən gizli yolla keçib, 6.5 kiloqram heroini şəhərin girəcəyində, 2 kiloqramı isə Arus kəndi ərazisində gizlədib Şahinə də bu barədə keçmədi ki, araşdırmalar öz nəticəsini verdi.

Şahinin səbirsizliklə gözlədiyi xəbər gəldi, "mallar"ı razılaşdırılmış yerlərə qoymuşdular. Xəbəri olan kimi tələsik evdən çıxıb bir taksi saxladı. Maşına əyləşib sürücüyə Masallıya sürməsini xahiş etdi. Əvvəl şəhərin girəcəyindəki bükülünü, sonra da o birini razılaşdırılmış yerdən götürdü. Amma bu dəfə çox uzağa gedə bilmədi...

***Çingiz Şıxverdiyev,***
***polis polkovnik-leytenantı***

# ASAYİŞİ QORUYURLAR...

Onları Yevlaxın hər küçəsində, parkında, əhalinin sıx olduğu yerlərdə görmək mümkündür. Söhbət Post-Patrul Xidmətindən gedir. Asayişi, əmin-amanlığı qorumaq vəzifəsinin öhdəsindən layiqincə gələn həmkarlarımız cinayətkarlıqla da qətiyyətlə mübarizə aparırlar. Gecə gəzintiləri də öz müsbət səmərəsini verir.








Ezamiyyətdə olarkən onlardan bir neçəsini "fotonun yaddaşı"na köçürdüm.

***Siz də tanış olun: taqım komandiri, polis baş leytenantı Allahverdi Sultanov, polis serjantları Rəşad Süleymanov, Tural Həsənov, Nicat Başirov, Məhəmməd Zülfüqarov və Səxavət Quliyev.***

***Üzeyir Muradov***

# TANIMAĞA KÖMƏK EDƏK...

**Uzaqdan hiss etdim ki, getmək istədiyi yeri xəritədə tapmaqda çətinlik çəkir. Əcnəbi idi. Yaxınlaşıb necə kömək edəcəyimi soruşdum. Əvvəlcə duruxdu. Polis olduğumu dedikdən sonra mənə "Qız qalası"na getmək istədiyini bildirdi.**

Yolu izah etməyimə baxmayaraq ünvanı tapmaqda çətinlik çəkəcəyini görüb: "Gəlin, mən sizi ora qədər ötürüm",-dedim. Razılaşdı. Məqsədim, həm də ona yaxınlaşarkən həyəcanlandığının səbəbini öyrənmək idi. Çünki bu halla artıq ikinci dəfə üzləşirdim...

Ötən ilin apreli idi. İki Belarusiyalı xanım qaldıqları oteli tapmaqda çətinlik çəkirdi. Onlar da Nataliya kimi ayın sonunda şəhərimizdə keçiriləcək Formula-1 Qran Pri yarışının texniki heyətinin işçiləriydi və axşam gəzintisindən qayıdarkən çətin vəziyyətə düşmüşdülər.




Ölkəmizin "Sabitlik adası" kimi tanındığını, daxili sabitliyin, əmin-amanlığın möhkəm təməllər üzərində qurulduğunu və Azərbaycan Polisinin asayişin keşiyində ayıq-sayıq dayandığını Nataliyaya söylədikdən sonra şəhərin bir neçə gəzməli-görməli yerlərinin ünvanını və necə gedə biləcəyini izah etdim. Sözlərimin səmimiliyinə artıq iki gün Bakıda olduğu müddətdə şahidlik etdiyini vurğulayan Nataliya Vətəninə-Moskvaya qayıdanda rəfiqələri, dostları, iş yoldaşları ilə Azərbaycan haqqındakı xoş və unudulmaz təəssüratlarını bölüşəcəyini, onlara "Odlar yurdumuza" səyahət etmələrini məsləhət görəcəyini bildirdi.

***Teymur Əlizadə,***
***polis kapitanı***

DAXİLİ İŞLƏR NAZİRLİYİ
SOSİAL ŞƏBƏKƏLƏRDƏ

Facebook
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.facebook.com/mia.gov.az/

İnstagram
Adı- azerbaycan.din
Keçid linki- https://www.instagram.com/azerbaycan.din/

Twitter
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://twitter.com/MIAAzerbaijan

Youtube
Adı- Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi
Keçid linki- https://www.youtube.com/channel/UCnOFIn-vwFvkLMCMGyg2j-w/featured

Yaponiyada 2018-ci ildə yaşlı sürücülərin günahı səbəbindən ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinə görə rekord sayda sakin könüllü olaraq sürücülük vəsiqəsindən imtina edib. Bu barədə Yaponiya Baş Polis İdarəsi məlumat yayıb. Bildirilir ki, ötən il 75 yaşdan yuxarı 292 min 89 nəfər sürücülük vəsiqəsini geri qaytarıb. Bu, 2017-ci illə müqayisədə 38 min 152 nəfər çoxdur. Bunun sürücülük vəsiqələrinin könüllü qaytarılması ilə bağlı proqramın başladığı 1998-ci ildən bəri rekord göstərici olduğu da vurğulanır.

Əlavə olaraq qeyd edilir ki, 2018-ci ildə Yaponiyada 75 və daha yuxarı yaşlı insanların törətdiyi yol-nəqliyyat hadisələri nəticəsində 460 nəfər həlak olub.

******




***Rusiyanın Daxili İşlər Nazirliyi 2018-ci ilin cinayət statistikasını açıqlayıb. Hesabata əsasən, ötən il Rusiyada 1 milyon 900 min cinayət qeydə alınıb. Cinayətlərin yarısından çoxu oğurluq hadisələridir. Ötən il ən çox cinayət paytaxt Moskvada törədilib: 140 min cinayət.***

***Kriminal reytinqin üst pillələrində Moskva vilayəti (80,2 min cinayət), Krasnodar diyarı (68,1 min cinayət), Çelyabinsk vilayəti (64,8 min cinayət), Başqırdıstan Respublikası da (57,4 min cinayət) yer alır.***

***Hesabata görə, 2018-ci ildə ən az cinayət Çukot Muxtar Mahalında rəsmiləşib: 748 cinayət. Nenetsk Muxtar Mahalında 857, İnquşetiya Respublikasında 1600, Kalmık Respublikasında 2700, Maqadan vilayətində 2900 cinayətin qeydə alındığı vurğulanır.***

******

Qırğızıstanda qızqaçırmaya görə həbs cəzası 7 ildən 10 ilədək artırılıb. Bu barədə "Dünya qadın bankı" qeyri-hökumət təşkilatının rəhbəri Gülsanə Abıtova məlumat verib. Onun sözlərinə görə, bu cəza 18 yaşına çatmayan qızları qaçıran və onları məcburi nikaha sövq edənlərə tətbiq olunacaq. Həmçinin, 200 min som (3min dollardan çox) cərimə də nəzərdə tutulub.

Qeyd edək ki, qızqaçırmaya görə cəzanın sərtləşdirilməsinə 2018-ci ilin mayında qaçırılan qızın öldürülməsindən sonra qərar verilib.

******

***Ukrayna Təhlükəsizlik Xidmətinin əməkdaşları Rumıniyadan və Almaniyadan olan həmkarları ilə birgə Avropanın transmilli heroin qaçaqmalçılığının qarşını alıblar. Bu barədə UTX-nin mətbuat xidməti məlumat yayıb.***

***Bildirilir ki, əməliyyat Ukrayna ərazisindən Avropaya külli miqdarda narkotik maddənin daşınması barədə məlumata əsasən keçirilib. Üç ölkənin təhlükəsizlik xidmətlərinin birgə uğurlu əməliyyatı nəticəsində 120 kiloqramdan çox heroin qaçaqmalçılıq yolu ilə aparılarkən saxlanılıb. Ələ keçirilən heroin "qara bazar"da 10 milyon avro dəyərində qiymətləndirilir.***

******

Böyük Britaniya vətəndaşları üz qabığında "Avropa İttifaqı" sözləri olmayan pasportlar almağa başlayıblar. Yeni pasportlar martın 30-dan verilir.

2019-cu ilin oktyabrdan pasportların rəngi də dəyişdiriləcək – Aİ ölkələrinə məxsus tünd qırmızı rəngindən Britaniya krallığının ənənəvi tünd göy rənginə.

******

***İrlandiya Polis Departamenti qadın polis əməkdaşlarına hicab geyinməyə icazə verib. Bu barədə departamentin rəhbəri Dryu Herris açıqlama verib. O bildirib ki, əvvəlki qadağa polis orqanlarında müəyyən əngəllər yaradıb.***

***Qeyd olunur ki, ötən ilin statistikasına görə, İrlandiyada 14 mindən çox etnik azlığa mənsub polis çalışır.***

***N.Cavadov***

# Aprelin 3-dən 9-dək olan müddət ərzində

- Respublikanın daxili işlər orqanları tərəfindən ötən həftə ərzində 164 cinayətin üstü "isti izlər"lə açılmışdır.
- Əvvəlki dövrlərdən bağlı qalmış 106 cinayətin açılması təmin olunmuşdur.
- Axtarışda olduğuna görə ümumilikdə 92, o cümlədən mülki hüquqi öhdəliklərin icrasından yayındığına görə 6, borclu şəxs qismində axtarışda olan 42 nəfər saxlanılaraq aidiyyatı üzrə təhvil verilmişdir.
- Avtomobil yollarında 11 ağır yol-nəqliyyat hadisəsi baş vermişdir ki, nəticədə 12 nəfər ölmüş, 6 nəfər xəsarət almışdır.
- Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 73 fakt müəyyən edilmişdir.

# BİRGƏ TƏDBİRLƏR HƏYATA KEÇİRİLİB

**Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, insan sağlamlığına ciddi zərər vuran, istifadəyə yararsız yeyinti məhsullarının satışının qarşısının alınması istiqamətində polis orqanlarının müvafiq qurumlarla birgə tədbirləri davam etdirilir.**

Növbəti belə tədbir aprelin 9-da DİN-in Baş İctimai Təhlükəsizlik İdarəsinə bilavasitə tabe olan Karantin tədbirlərini təmin edən Əlahiddə Polis Taboru əməkdaşlarının Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri ilə birgə Xaçmaz şəhəri ərazisində keçirilib.

Şəhər sakini B.Qanbayev idarə etdiyi "Opel" markalı avtomobilə baxış zamanı yük yerindən natəmiz vəziyyətdə və sümükdən ayrılmış halda olan, çəkisi 330 kiloqram at əti aşkar edilərək götürülüb.

Ətdən götürülmüş nümunələr müvafiq ekspertizanın keçirilməsi üçün Qida Təhlükəsizliyi Agentliyinin laboratoriyasına təhvil verilib.

Araşdırmalar aparılır.

***C.Natiq***

Baş İctimai Təhlükəsizlik İdarəsinin rəisi Oktay Kərimov və şəxsi heyəti iş yoldaşları Elçin Qubadova anası

**ELZA xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Baş Əməliyyat və Statistik İnformasiya İdarəsinin rəisi Elşən Kazımov və şəxsi heyəti Sadiq Gözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Mətbuat Xidmətinin rəisi Ehsan Zahidov və şəxsi heyəti Elçin Qubadova anası

**ELZA xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Növbətçi Hissələrin İdarəetmə Xidmətinin rəisi Fuad Bəxtiyarov və şəxsi heyəti Sadiq Gözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

DİN Şəxsi Heyətlə İş İdarəsinin rəisi Rahib Qarayev və şəxsi heyəti Elçin Qubadova anası

**ELZA xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Səbail RPİ 9-cu PB-nin rəisi Elsevər Qədirova əmisi

**ƏLƏMDAR QƏDİROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Laçın RPŞ-nin rəisi Adil Əsədov və şəxsi heyəti Sadiq Gözəlova əzizi

**MƏHƏMMƏDƏLİ kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

MÜBARİZ KEŞİKDƏ
qəzetinin Kompyuter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Mübariz keşikdə"yə istinad olunmalıdır.
Redaktor
CAVİD XASPOLADOV
Qeydiyyat № 155. İndeks: 66993
Sayı 9.978
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-96-30; 590-93-92; 590-99-30
Çapa imzalanmışdır 16:00